keçirirlər. Onlar arxayın olmaq istəyirlər ki, onların «keyfiyyət nişanını» almış məhsul həqiqətən ekoloji olsun. Ona görə də, istehsalat şəraitləri də, həmçinin son məhsulda qalan kimyəvi elementlərin miqdarı da yoxlanılır. Məhsul Avropa İttifaqının ekoloji göstərişləri üzrə istehsal olunursa, lakin onda qadağan edilmiş maddə tapılırsa o, artıq heç vaxt ekoloji adlandırılmır.

Ekoloji istehsala nəzarət yerlərdəki ittifaqlardan başqa, xüsusi dövlət təşkilatları tərəfindən də həyata keçirilir.

**Biomәhsul.** Alternativ təsərrüfatçılıq zamanı bəzi maddələri əldə etmək mümkün deyildir, lakin onlar «eko» nişanlı son məhsulun hazırlanmasından ötrü əvəzedilməzdir. Belə halda nə etməli? Ekoqayda bəzi tərkib hissələrindən Avropa İttifaqının «ekoloji olmayan» təsərrüfatlarında istehsal olunanlarını (məsələn, ədviyyatların, ekzotik meyvələrin) istifadəsinə icazə verir. Bu halda məhsulun komponentlərinin minimum 70%-i ekomənşəyə malik olmalıdır. Lakin məhsul o vaxt məhdudiyyətsiz «ekoloji» kimi satılır ki, onun 95%-i ekokomponentlərdən ibarət olur. Yalnız bu halda məhsulun üstündə «BİO-işarə» göstərilir.

**Perspektivlidirmi?** Yəgin bu fikirdəsiniz ki, bütün bunlar bizə lazım deyil? Yaxşı olar ki, ərzaq məhsullarının tərkibində nitratların və ağır metallar qrupu mikroelementlərinin miqdarının azaldılmasının qayğısına qalınsın? Bu da vacibdir, lakin bütün dünyada tanınan ekoistehsal prinsipləri ilə kənd təsərrüfatının aparılması və başa düşülməsi Azərbaycan əmtəəistehsalçısından ötrü yeni perspektivlər açır. Çünki, burada ucuz ekoməhsullar əldə etməklə məşğul olmağa imkan vardır: işçi qüvvəsi, müvafiq torpaq şəraiti! Yalnız sertifikasiyalaşdırmadan keçmək, yəni şəhadətnamə almaq lazımdır.

Ekoistehsalın Avropa standartlarının Azərbaycanda qəbul edilməsi işgüzar təsərrüfatçıların «əl-qolunu açar», strateqiya seçiminə kömək edər. Lakin burada tələskənliyə yol vermək olmaz. Bizim hamımıza əvvəlcə «ekoloji» və «təhlükəsiz» məhsul məfhumlarını fərqləndirməyi öyrənmək lazımdır, çünki bunlar eyni şey deyil və sonra isə ölkə və dünya standartlarının uyğunlaşdırılması imkanlarını da müzakirə etmək olar.

**Faiq Nadirov,**
*kənd təsərrüfatı elmləri namizədi*

İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi

"Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti"

Layihə
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.

İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı

Ünvan: Bakı, C.Cabbarlı 40.
Tel/faks 498188, 5967018.

"Kösər" mətbəəsində çap olunmuşdur. Sayı 5000.

# Kimyasız olanların hamısı «eko» deyil (II)



Bakı-2009

Heyvan mənşəli ekoloji məhsula tələbatın artması bu sahədə də istehsalın nizamlanmasından ötrü müvafiq normaların həyata keçirilməsini tələb edir. Bunun nəticəsi idi ki, 19 iyul 1999-cu il tarixdə ekoloji keyfiyyətdə heyvandarlıq məhsullarının istehsalı üzrə əsas göstərişlərin verildiyi «heyvandarlıq məhsulları istehsalının 2/91 qaydalarının qüvvədə olan sferasına daxil edilməsi barədə Avropa İttifaqının 1804/1999 nömrəli Qaydaları» dərc olundu. Bu Qaydalara əsasən, heyvandarlıq elə təşkil olunmalıdır ki, o, bütövlükdə ekoloji istehsalda ballast, yəni artıq yük olmasın. Ona görə də təsərrüfatda heyvanların miqdarı emal olunan sahənin ölçülərinə uyğun olmalıdır. Yəni torpağın, qrunt və səth sularının qida elementləri ilə artıq yüklənməsinə yol verməmək üçün təsərrüfatın hər hektar torpaq sahəsinə maksimum ya 2 inək, ya da kökəldilən 14 donuz, yaxud yumurtlayan 230 toyuq düşməlidir. Lakin bu şərtlərə Almaniyanın ekoloji olmayan ənənəvi müəssisələri də cavab verir. Burada hər hektarda orta hesabla 1,6 baş şərti mal saxlanılır. Almaniyanın ekoloji təsərrüfatlarında isə hər hektara orta hesabla 0,71 şərti mal düşür. Tələblərin siyahısına aşağıdakılar da daxildir:

- Bitkiçilikdə oduğu kimi, heyvandarlıq üçün «ilkin material» ekoloji mənşəyə malik olmalı, yəni alınan heyvanlar alternativ təsərrüfatlarda doğulmalı, bundan başqa, doğulandan ekoloji saxlanmalı və ekoloji yemləndirilməlidir.
- Alternativ kənd təsərrüfatından ötrü cinslərin, yaxud seleksiya istiqamətlərinin seçilməsi zamanı yalnız məhsuldarlıq göstəricilərinə deyil, həm də hər şeydən əvvəl heyvanların həyatilik və sağlamlıq xarakteristikası nəzərə alınır. Ətraf mühit şəraitlərinə uyğunlaşmış, xəstəliklərə az tutulan, reproduksiya prosesində mürəkkəbləşmələri az olan cinslərə üstünlük verilir.
- Yemləmə sistemləri növə və heyvanların məhsuldarlığına müvafiq olmalı, həm onların fizioloji tələbatlarını ödəməli, həm də yüksək keyfiyyətdə məhsullar əldə olunmasını təmin etməlidir.
- Ekoloji təsərrüfatlarda heyvanlar üçün ekoloji yemlərdən istifadə edirlər. Burada təsərrüfatın öz istehsalı olan yemlərə üstünlük verilir, amma bir neçə hallarda onların əlavə olaraq kənardan alınması da mümkündür. Əgər yalnız ekoloji yemlərlə yemləndirmək mümkün deyilsə, onda yem payında yemlərin otyeyənlərdən ötrü 10%-inin, otyeməyənlərdən ötrü isə 20%-inin ekstensiv texnologiya üzrə istehsal edilmiş olmasına yol verilir.
- Heyvanların sağlamlığını saxlamaqdan ötrü mineral mənşəli yemlər, mikroelementlər, həmçinin vitaminlər və provitaminlər də lazımdır. Yemləndirilmənin ekoqaydalarına daxil olan və genetikası dəyişdirilmiş orqanizmlərdən istifadə edilmədən hazırlanmış – rafinadlaşdırılmamış dəniz duzu, natrium-xlorid, əhəng, kalsium-qlükonat və digər yemlərdən istifadəyə icazə verilir.
- Ekoloji heyvandarlıqda qarşıya qoyulan məqsəd, heyvanların xəstələnmə hallarının azaldılması və əziyyətləri minimuma endirildikdən ibarətdir. Son məhsulda dərman qalıqlarının olması istisna edilir. Heyvanların müalicəsindən ötrü bitki mənşəli vasitələrin yaxud homeopatik preparatların məhdudiyyətsiz istifadə olunmasına icazə verilir. Antibiotiklərdən istifadə qadağandır.
- Müxtəlif boy stimulyatorları və məhsuldarlıq stimulyatorları, hormonlar qadağan edilir.

**Kömək və nəzarət.** Nəyə görə əziyyət çəkərək bütün göstərişlərə əməl edilsin, onsuz da heç kim sübut etməyəcək ki, istehsal prosesində nədən və necə istifadə edilmişdir? Bu fərziyyə düz deyil. Almaniyada, məsələn, ekoloji məhsulun istehsalına nəzarət və istehsal üzrə ittifaqlar mövcuddur. Onların fəaliyyətində ekogöstərişlərin qaydaları daha da sərtləşdirilmişdir. Ekoloji məhsul istehsal etməyə qərar verən fermerə təklif olunan şərtlər üzrə istehsalla məşğul olmaqdan başqa digər heç nə qalmır, axı bazara təkbaşına girmək heç cür mümkün deyil. Birliklər öz üzvlərinin maraqlarını təmsil etməklə məşğul olur, məhsullara məsləhət vermə sertifikasiyanı aparır, ixtisas artırma kursları təşkil edir və eyni zamanda müəssisələrdə istehsalat şəraitlərinə vaxtaşırı nəzarəti həyata